HƏFTƏ İÇİ

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Çərşənbə axşamı / 27 fevral 2018-ci il | Qiyməti 40 qəpik | 1

Xocalı Soyqırımının qurbanları yad edildi

Xocalı Soyqırımının 26 ili tamam oldu. Xətai rayonunda yerləşən "Ana Harayı" abidəsini ilk olaraq ölkə başçısı ziyarət etdi. Abidənin önünə əklil qoydu. Hafta.az-ın əməkdaşının verdiyi xəbərə görə, sonra dövlət və hökumət nümayəndələri Xocalı qurbanlarının aziz ruhu qarşısında baş əydilər.

Ölkəmizdəki xarici ölkə səfirliklərinin nümayəndələri, ictimai sektor təmsilçiləri də abidəni ziyarət edənlərin arasında idi.

Sonra ucsuz-bucaqsız insan izdihamı "Ana Harayı" abidəsini ziyarət etməyə başladı. Tələbələr, müəllimlər, sağ qalan Xocalı sakinləri ələrində üçrəngli Azərbaycan Bayrağı, tər qərənfillərlə abidənin önündə göründülər. Xocalı sakinləri "Ana Harayı"nın dörd bir tərəfinə həkk edilmiş lövhələrdəki adları görüb özlərini saxlaya bilmədilər. Həmin günün dəhşətlərini göz yaşları içərisində bir-birlərinə xatırladırdılar. Onlarla söhbətimizdən məlum oldu ki, sağ qalan Xocalı sakinləri ölkəmizin müxtəlif regionlarında yaşamalarına baxmayaraq, hər il abidəni ziyarət etmək üçün Göygöldən, Tovuzdan, Siyəzəndən, Qəbələdən, Ağdamdan, Ağcabədidən, Gəncədən, Mehdiabad qəsəbəsindən Bakıya - "Ana Harayı" abidəsini ziyarət etməyə gəlirlər.

I Anım

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerləyeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı aparıdıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

ardı səh. 2▶

Xocalı Soyqırımının qurbanları yad edildi

« əvvəli 1-ci səhifədə

Ermani tacavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, başarıyaste, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, ozamanki Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəya siyasi qiymat verildi. 1994-cü ildə ulu öndər Heydar Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevral Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Facia ilə bağlı həqiqatların dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydar Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən arxidi və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yaşın və sastakarlıq üzərində qurulmuş ermani təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması fakti dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatlarını qərarlarında, bəyanatlarında aləisi tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Hersoqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-in bir sıraştatlarının qanunverici organları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı şülh və başqa-riyyət əleyhinə yönələn əmaldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qabul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı hərnin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əmellər təlbiq olunub.

Xalqımız qəti əmindir ki, adalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Canubi Qafqazın iqtisadi güc markazına çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

Xocalı sakini Firdovsi Əliyev hafta.az-a açıqlamasında 1992 -ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşadıqlarını danışır: "17 yaşım var idi. Səngərdəkilere yemək aparıb yenicə eve gəlmişdim. Xocalı batalyonundan bir nəfər gəldi ki, ermənilər dörd tərəfdən hücuma keçib, təcili çıxın. Dəlində, hücumu gözləyirdik, amma inanmadıq. Elə yenicə yerimə uzanmışdım ki, atam içəri girdi. Dedi ki, tez çıxın artıq "finski" evlər yanır. Qrad, top, "Alazan" hər ne gəldi atırlar. Heç ne götürmədik, çıxdıq. Gynimiz də qalın deyildi. Həyəcandan özümüzü itirdik. Evimizin arxasından Qarqaya deyilen yer var, oraya doğru qaçmağa başladıq. Baxdıq ki, yerdə meyitlər var. İsimliçi var idi. Başının arxası yox idi, iriçaplı güllə ile vurmuşdular. Sinif yoldaşım Alıhverdiyev Bahram yaralı idi. Onu götürmək istədim. Qoluna girəndə mənə atılan güllə ona dəydi. Yerindəca keçindi. Hayharay düşmüşdü. Başımızı tez itirmişdik. Səhər saatlarında Ketik tərəfdən Ağdama keçə bildik".

Mahnıza Absova isə hamin gün yoldaşının şəhid olduğunu deyir: "Qaçaqaç düşdü, baxdım ki, hamı Qaraqaya tərəfə qaçır. İlham adında bir oğlan var idi. Onda ov tüfəngi vardı, dedi ki, gəlin, biz Ketik tərəfdən gedək. Məşədə ermənilərin pusqusuna düşdük. İlham bir ermənini vurdu. Başqa bir ermani isə onu öldürdü. Bizi əsir götürdülər. Yoldaşımı və 12 nəfər xocalılını seçib apardılar. Bizi martın 2-də dəyişəndə "senaj" quyusunun yanında yoldaşımın meyitini gördüm. Martın 6-da da yoldaşımın meyitini Ağdam mascidinə gətirdilər. Elə Ağdamda dəfn elədik".

Xocalılılarla söhbətimizi davam etdirik. Deyirlər ki, Xocalıya axırıncı vertolyot soyqırımdan 2 həftə əvvəl gəlib. Abbas adlı bir kişini dinləyirik: "Üzük qaşı kimi mühasirədə idik. Çörəyi də vertolyotla atırdılar. Axırıcı dəfə Xocalıya harbi helikopter gəldi. On-on iki nəfar yaralı, qoca, uşaq göndərdik. Vəziyyet getdikcə ağırlaşırdı. 613 nəfər deyirlər, amma qırılan çox idi. 150 nəfərin taleyi indi də naməlumdur. Bunları da onların üstünə gəlmək lazımdır. Əlil kimi, Tofiq kimi Milli Qəhrəmanlarımız olmasaydı, daha çox adamın qırıldı. Onların kömək-liyi ilə xeyli adam xilas oldu".

Sonra Skaut könüllülərinin keçidi oldu. Əllərində Azərbaycan və Türkiyə bayraqlarını, "Xocalıya Ədalət", "Justice for Khojali" pankart və plakatlerini tutan gəncilər marş sədaları altında Xocalı qurbanlarını anma yürüşünü keçdi etdilər. Azərbaycan Respublikasının Dövlət Himnini səslandırdılar, rəhm oxudular.

Borçalı İctimai Cəmiyyətinin nümayəndələri də Xocalı abidəsini ziyarət edənlər arasında idi. Vaxtilə Xətai rayonunun icra başçısı olmuş Zəlimxan Məmmədli hazırda cəmiyyət sədri olaraq ideya müəllifi olduğu "Ana Harayı" abidəsini ziyarət etdi. Borçalı cəmiyyəti ilə birgə soyqırımı qurbanlarının məzarını ziyarət edənlər arasında Karkükdəki Türkmaneli Partiyasının sədri Riyaz Sarıkahya, güney Azərbaycanı təmsil edən Abdulla Əmir Haşimi Cavanşir, dayeti ziyalılarımızdan olan Rüfət Muradlı da qatılmışdı.

Türkiyə Safirliyinin hərbi attaşesi, hərbçilər də abidəni ziyarətə edənlər arasında idi.

...Xocalı sakinlərindən birinin dişarına dediyi söz hələ də yadımdan çıxmır: "Elə bilirsən, buradan o abidəye baxmaq asandı? Dilində yaşıq tutmuş o heykələ baxanda Xocalının işğaldan əvvalkı günləri yadına düşür". Maraqlı, çox maraqlı, eləcə də dəhşətli müşahidədir. Soyqırımın, faryadın ağrısını özündə əks etdirən abidəya baxaraq, Xocalının xoş günlərini xatırlayasan.

Dayışmayan bir həqiqət var, bu qətliam 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı başa vermiş soyqırımıdır. Xocalı Ermənistan dastələri tərəfindən zəbt olunduqdan sonra, orada qalan mülki əhali deportasiya olundu. Bu əməllər müsəqkkil formada həyata keçirildi.

Tavafüqdürmü yə tasadüf, bilmiram, İyirminci yüzlüdə yer üzündən silinən şəhərlərin hamısı, nədənsə, "X" hərfi ilə başlayır. X...ocəkost, X...rosima, X...atın və X...ocalı. Sizi bilmiram, mənçe, çox qəribədir. Belke da hamin şəhərlərin "X" hərfi ilə başlaması və ya onların əsas oxşarlıqlarının cəmi bir sabəbi var: ikisənnis şəhərlərin "X" taleli atin yazılan...

Xocalı ötən asrin sonlarında yer üzündən silinən şəhərlərin, soyqırımı törədilmiş makanların son dayanacağı idi. Ermani vandalizmi Qarabağın xocasını "tikləməklə" dünya soyqırımı tarixində yeni səhifə açdı. 613-cü sahifə... Xocalı soyqırımının qurbanlarının ruhu heç o səhifədə də rahat deyil. Çünki doğuldugları və öldükləri şəhər hələ də ermani işğalı altındadır. Qələbəye isə uzanan yolun sonu görünmür... İçimdən gələn səs isə deyir ki, biz qayıdacağıq, mütləq dönəcəyik, XOCALILILARI!!!

Tural Turan